Azadlıq Radiosu

AZƏRBAYCAN XƏBƏRLƏRİ

# AXCP-də həbslər var

indicə




Əli Kərimli və AXCP ətrafında yaşananlar: Niyə Ramiz Mehdiyev yenidən gündəmə gətirilir?

Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) fəallarından **Anar Ərkivan**ın 30 sutka həbs edildiyi bildirilir. O, İnzibati Xətalar Məcəlləsinin (İXM) 535.1 maddəsi (Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama) ilə təqsirləndirilib. Bu barədə AXCP məlumat yayıb.

Partiyadan vurğulandığına görə, dünən, iyunun 16-da şəxsi avtomobilini idarə edən zaman Dövlət Yol Polisinin (DYP) əməkdaşı onu saxlayaraq telefonla danışmaqda günahlandırıraq cərimələmək istəyib. O, isə avtomobili idarə edən zaman telefonla danışmadığını deyib: **“Yazılacaq cəriməyə etirazını bildirib. DYP əməkdaşı əlavə qüvvə çağıraraq Anar bəyə zor işlədib, onu Nərumanov rayon Polis İdarəsinin 17- ci polis şöbəsinə gətiriblər . Bir sutka orada saxlandıqdan sonra bu gün Nərimanov rayon Məhkəməsinin qərarı ilə 30 sutka inzibati qaydada həbs olunub".**

Hələlik, bu məlumata rəsmi qurumlardan münasibət almaq mümkün olmayıb.

Anar Ərkivan bu ilin fevralında da polisə müqavimət və xırda xuliqanlıq ittihamı ilə 30 sutka həbs edilmişdi. Yaxınları onda da onun şərləndiyini açılamışdılar.

AXCP-dən yayılan məlumata görə, ötən həftə isə Masallı Rayon Şöbələrinin fəalı **Əlixan Rəcəbov** narkotik ittihamı ilə həbs olunub. Partiyadan bu il yanvarın 7-də saxlanan Əlixan Rəcəbovun 1 il 6 ay həbs cəzası aldığını açıqlayıblar.

AXCP bildirir ki, o, sərt tənqidlərinə görə cəzalandırılıb.

Amma rəsmi qurumlar isə bir qayda olaraq ölkədə siyasi həbslərin olması ilə bağlı deyilənləri əsassız sayırlar.

## Xatırlatma

Son illər AXCP-nin bir çox üzvləri vaxtaşırı inzibati qaydada həbs edilir. Hazırda partiyanın 20-i civarında üzvü isə uzunmüddətli həbsdədir. Onların arasında AXCP sədri Əli Kərimli də var. Həmin şəxslər müxtəlif ittihamlarla üzləşsələr də, partiya onların siyasi sifarişlə həbs edildiyini açıqlayıb.

Hüquq müdafiəçilərinin hazırladığı siyahıya görə, Azərbaycan həbsxanalarında hazırda ümumilikdə 328 siyasi məhbus var. Amma rəsmilər, bir qayda olaraq, ölkədə siyasi fəaliyyətə görə həbslərin olması ilə bağlı deyilənləri əsassız sayırlar. Onlar vurğulayırlar ki, həmin şəxslər sırf törətdikləri əmələ görə mühakimə ediliblər.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur